Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Tabe olmayan adamlar

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Jonathan Hay

Uyğunlaşdıran: Mary-Anne S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Padşah Navuxodonosor bir qızıl heykəl düzəltdi.  O, başdan ayağa qədər qızıldan idi.  Bəlkə to Ola bilsin ki, padşah Allahın ona qızıl padşahlığının əbədiyyən davam etməyəciyini dediyi yuxusunu unutmuşdu. Bəlkə o, əgər tamamilə qızıldan bir heykəl tikərsə, onda yuxusundakı Allahın Sözünün yerinə yetməyəcəyini fikirləşirdi.



Padşahın işçilərindən biri elanı bütün camaata oxudu: “..siz yerə əyilib qızıl heykələ səcdə etməlisiniz... kim yerə əyilib səcdə etməsə, o saat odla qızmış sobanın içinə atılacaq”.



Üç nəfərdən başqa hamı padşahın əmrinə əməl etdi.  Bu üç nəfər Danielin dostları Şadrak, Meşak və Aved-Neqo idi. Elə görünür ki, o vaxt Daniel orada deyildi, sözsüz ki, o da insan əli ilə düzəlmiş bütə səcdə etməyi imtina edərdi.



Padşahın münəccimləri Daniel və onun dostlarının paxıllığını çəkirdilər, çünki padşah onları xoşlayırdı. Beləliklə, onlar dedilər: “Sənin Babil ölkəsinə məmur qoyduğun Şadrak, Meşak və Aved-Neqo adlı Yəhudilər var.  Ey padşah, bu adamlar sənə itaət etmir, sənin allahlarına xidmət etmir və qoyduğun qızıl heykələ səcdə etmir”.





Padşah Navuxodonosor qızğın qəzəblə doldu. Onlara xəbərdarlıq etdi: “Əgər siz səcdə etməsəniz, onda odla qızmış sobaya atılacaqsınız.  O zaman hansı alllah sizi mənim əlimdən qurtaracaqdır?”

Padşah böyük səhv edirdi.  Əslində o, yaşayan Allaha çağırış atırdı. Üç ibrani oğlan bilirdi ki, heykələ səcdə etmək Allahın qanununa qarşı idi.  Onlar dediklərinin üstündə durdular.  Çünki onlar Allaha güvənirdilər, onlar padşahdan qorxmurdular.



Bu üç cəsur oğlanın padşah üçün cavabı var idi.
Onlar dedilər: “Qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir və sənin də əlindən qurtaracaq.  Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik”.



O zaman Navuxodonosor bərk qəzəbləndi! O, əmr etdi ki, sobanı adətən qızdırdıqlarından yeddi dəfə artıq qızdırsınlar. Oğlanlar hələ də diz çökmürdülər.



Ordunun ən güclü əsgərlərinə Şadrakın, Meşakın və Aved-Neqonun əl-qolunu



bağlayıb onları odla qızmış sobaya atmalarını əmr etdi.

Soba həddindən artıq qızdırıldığı üçün alovun dilləri Şadrakı, Meşakı və Aved-Neqonu oda atan adamları öldürdü.



Padşah uzaqdan tamaşa edirdi.  O, üç oğlanın düz odlu sobanın içinə atıldığını gördü.  Amma o təkcə bunu görmədi.



Padşah Navuxodonosor heyrətləndi! “Biz üç nəfər əl-qolu bağlanmış adamı oda atmadıqmı?” Onlar dedilər: “Doğrudur, ey padşah!” O, dedi: “Budur, mən odun içində əl-qolu bağlanmamış dörd nəfərin gəzdiyini görürəm və onlara heç nə olmur. Onlardan dördüncüsü allahların oğluna bənzəyir”.



O zaman Navuxodonosor odla qızmış sobanın astanasına yaxınlaşdı və səsləyib dedi: “Ey uca Allahın qulları Şadrak, Meşak və Aved-Neqo! Çıxın və buraya gəlin!” Onda Şadrak, Meşak və Aved-Neqo odun içindən çıxdılar.



Hamı onların ətrafına toplaşdı və üç İbranini yoxladı. Onlar gördülər ki, alovun onları yandırmaqda heç bir gücü yox idi. Onların saçları da, paltarları da yanmamışdı. Onların üzərində heç ocaq iyi də yox idi.



Nəyin baş verdiyini dərk edəndə padşah Navuxodonosor çox müdrik bir şey etdi.  O dua etdi və dedi: “Şadrakın, Meşakın və Aved-Neqonun Allahına şükür olsun ki, Öz mələyini göndərib Ona arxalanan qullarını xilas etdi”.



# Tabe olmayan adamlar

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Daniel 3

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**